# NOVRUZ VƏ RAMAZAN BAYRAMINIZ MÜBARƏK!


*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

19 mart 2026-cı il №11 (9166) www.muallim.edu.az muallim@media.edu.az


## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrik məktubunda çox qədim köklərə malik Novruz bayramının ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərmağanı olduğunu vurğulayaraq bildirib: “Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır”.

Prezident İlham Əliyev əlavə edib ki, Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

“Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik”, - deyə Azərbaycan Prezidenti bildirib.




**Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir.**

## Prezident İlham Əliyev Xocavənd rayonunun Xanoba kəndində Novruz tonqalını alovlandırıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, sonra dövlətimizin başçısı və birinci xanım kəndə köçmüş Bəybala Qasımovun evində olublar. Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb.

## Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq və bərabərlik yoluna dəvət edir. Bu ayda müsəlmanlar oruc tutmaqla Allah və din qarşısında vicdani borc və vəzifələrini layaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi kamilliyə ucalmaq fürsəti qazanırlar. Orucluq mərasimləri bütün İslam aləmində olduğu kimi, Azərbaycanda da hər il böyük fərəh və məmnunluq hissi ilə keçirilir. Ölkəmizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayında dövlətimizin rifahı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur. İnanıram ki, insanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran mübarək Ramazan günlərində dua və diləkləriniz, saf niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

*Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik məktubundan (28 mart 2025-ci il)*



### Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib

Bax səh.2



### Elm və təhsil naziri Emin Əmrullayev təcrübəsini bölüşüb

Bax səh.3



### Novruz adət-ənənələrinə xüsusi ehtiram

Bax səh.7

### Müasir mərkəz, yeni imkanlar

Bax səh.4

### Qərbi Azərbaycanın mətbəx mədəniyyəti

Bax səh.5

### Müəllim – təhsil sisteminin mərkəzində

Bax səh.6

### Novruzun müjdəçiləri

Bax səh.7

# Tarixi, mədəni və dini abidələrin bərpası milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır




## Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib.**



İclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. Qeyd edib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.

Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili




tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

**İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsi tikilərək və bərpa edilərək istifadəyə verilib. Həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub.**

**Görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insan yaşayır və fəaliyyət göstərir.**

**Qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək.**

paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə

Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

**AZƏRTAC**

# Aqrar sahə innovasiya, texnologiya və sahibkarlıq imkanlarının, startapların sürətlə inkişaf etdiyi perspektivli istiqamətlərdən biridir



## Elm və təhsil naziri Aqrar Biznes Festivalında iştirak edib

**Martın 17-də Cəlilabad rayonunda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi və Cəlilabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Aqrar Biznes Festivalı keçirilib.**



Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin ərazisində təşkil olunan festivalın məqsədi aqrar sahədə fəaliyyət göstərən fermerləri, sahibkarları, startapçıları və dövlət qurumlarını bir araya gətirmək, kənd təsərrüfatında innovativ yanaşmaların tətbiqini təşviq etmək, eləcə də aqrar biznes imkanlarını geniş ictimaiyyətə təqdim etmək olub.



Festivalın açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, aqrar sahədə həyata keçirilən sistemli islahatlar, fermer və sahibkarlara göstərilən dövlət dəstəyi, eləcə də müasir texnologiyaların tətbiqi kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verir. Nazirin sözlərinə görə, bu gün kənd təsərrüfatı yalnız istehsal sahəsi kimi deyil, həm də innovasiya, texnologiya və sahibkarlığın qovuşduğu strateji iqtisadi istiqamətlərdən birinə çevrilməkdədir. Aqrar sahədə rəqəmsal həllərin tətbiqi, startap təşəbbüslərinin təşviqi, elmi biliklərin və müasir texnologiyaların praktikaya inteqrasiyası sektorun rəqabətqabiliyyətliliyinin artırılmasına xidmət edir.

Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, bu gün təşkil edilmiş festival məhz dövlət-özəl əməkdaşlıq mühitinin formalaşdırılmasına xidmət edir. Bu platforma dövlət qurumları, biznes nümayəndələri və gənclər arasında dialoqu gücləndirir, yeni tərəfdaşlıqların qurulmasına və aqrar sahədə innovativ təşəbbüslərin yaranmasına imkan yaradır.

Gənclərə müraciət edən elm və təhsil naziri bildirib ki, aqrar sektor artıq yalnız ənənəvi fəaliyyət sahəsi deyil. Bu sahə innovasiya, texnologiya və sahibkarlıq imkanlarının, eyni zamanda, startapların sürətlə inkişaf etdiyi perspektivli istiqamətlərdən biridir. Gənclərin bu sahədə yeni ideyalar irəli sürməsi, texnologiyaların tətbiqi ilə bağlı təşəbbüslər göstərməsi və aqrar biznesə qoşulması ölkəmizin gələcək iqtisadi inkişafı üçün çox vacibdir.

Nazir çıxışında əmək bazarının tələblərinə cavab verən peşəkar kadrların hazırlanması, eləcə də peşə təhsili sisteminin potensialının gücləndirilməsi istiqamətində son illərdə görülən işlərdən də söz açıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxışında vurğulayıb ki, rəhbərlik etdiyi qurum tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirlərinin prioritet istiqamətlərindən biri aqrar sektorda məşğul əhalinin peşə bacarıqlarının inkişafı, işsiz və işaxtaran şəxslərin özünüməşğulluğunun təşkilidir. Nazir bildirib ki, aqrar sahəyə aid 128 peşə və kvalifikasiya standartları hazırlanıb. Bu standartlar beynəlxalq əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin hazırlanmasına və bacarıqlarının artırılmasına, habelə işəgötürənlər üçün ixtisaslı işçi qüvvəsinin seçiminə xidmət edir.

Son beş il ərzində özünüməşğulluq proqramı iştirakçılarının 65 faizinin proqram üzrə aqrar sahədə kiçik təsərrüfatlarının qurduğunu qeyd edən Anar Əliyev artıq özünüməşğulluq proqramına 110 mindən çox şəxsin cəlb olunduğunu deyib. O, aqrar sahədə dayanıqlı və formal məşğulluğun genişləndirilməsi istiqamətində də tədbirlərin davam etdirildiyini bildirib.

Çıxış edən Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov ölkəmizdə kənd təsərrüfatının inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayaraq aqrar sahədə innovasiyaların tətbiqinin, peşə təhsilinin inkişafının və məşğulluq imkanlarının genişləndirilməsinin əhəmiyyətindən bəhs ediblər. Natiqlər qeyd ediblər ki, bu kimi festivallar fermerlər, gənclər və sahibkarlar üçün yeni əməkdaşlıq və inkişaf imkanları yaradır.

Çıxışlardan sonra Aqrar Biznes Festivalında fəal iştirakına və tədbirin təşkilinə göstərdikləri dəstəyə görə bir sıra qurum və təşkilatların nümayəndələri təşəkkürnamələrlə təltif olunublar.

Açılış mərasimindən sonra iştirakçılar sərgi sahəsinə baxış keçiriblər. Festivalın sərgi bölməsində Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumları, Dövlət Məşğulluq Agentliyinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin nəzdində fəaliyyət göstərən 10-dan artıq dövlət peşə təhsil mərkəzi, eləcə də aqrar sahədə fəaliyyət göstərən müxtəlif şirkətlər öz xidmət və məhsullarını nümayiş etdiriblər.

Tədbir iştirakçıları həmçinin Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində “Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi” layihəsi çərçivəsində təşkil olunan “Bootcamp” proqramının iştirakçıları ilə görüşüblər. Görüş zamanı “Bootcamp” iştirakçıları hazırladıqları layihələr və aqrar sahədə innovativ texnologiyaların tətbiqi imkanları ilə bağlı təqdimatlar ediblər. Sərgi çərçivəsində yaradılmış startap zonasında aqrar startapçılar innovativ layihə və həllərini təqdim ediblər. Bununla da startapçılar fermer və sahibkarlarla birbaşa ünsiyyət quraraq öz ideyalarını təqdim etmək və potensial əməkdaşlıq imkanlarını müzakirə etmək imkanı əldə ediblər.

# Elm və təhsil naziri ABŞ-nin ölkəmizdəki müvəqqəti işlər vəkili ilə görüşüb





Martın 17-də elm və təhsil naziri Emin Əmrullayev Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Emi Karlon ilə görüşüb.

Görüş çərçivəsində elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# Nazir müavini İsrailin ölkəmizdəki səfiri ilə görüşüb



Elm və təhsil nazirinin müavini Həsən Həsənli İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ronen Krausz ilə görüşüb.

Görüş çərçivəsində elm və təhsil sahəsində əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# Emin Əmrullayev təhsil idarəçiliyində strateji baxış və şəxsi liderlik mövzusunda təcrübəsini bölüşüb

## Uğur yalnız nəticə ilə deyil, eyni zamanda insanın özünü xoşbəxt və faydalı hiss etməsi ilə ölçülür



**Martın 17-də Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən "Danışır təcrübə" layihəsi çərçivəsində baş tutan sayca 10-cu görüşün qonağı elm və təhsil naziri Emin Əmrullayev olub.**







Nazir çıxışına başlamazdan əvvəl görüş iştirakçılarını Torpaq çərşənbəsi münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb.

"Təhsil idarəçiliyində strateji baxış və şəxsi liderlik təcrübəsi" mövzusunda çıxış edən nazir öz peşəkar fəaliyyət yolu və bu müddət ərzində qazandığı təcrübələr barədə iştirakçılarla fikirlərini bölüşüb.

Nazir çıxışında uğur anlayışına da toxunaraq qeyd edib ki, uğurlu olmaq hər bir insan üçün fərdi məna daşıyır, uğur yalnız nəticə ilə deyil, eyni zamanda insanın özünü xoşbəxt və faydalı hiss etməsi ilə ölçülür. Emin Əmrullayev vurğulayıb ki, uğurlu olmağın əsas komponentləri sırasında fərdi bacarıqlar və fitri istedadla yanaşı, ən vacib amillərdən biri mühitdir. Nazir sağlam və inkişafyönümlü mühitin formalaşmasının həm fərdi inkişafda, həm də peşəkar uğurun əldə olunmasında həlledici rol oynadığını qeyd edib.

Görüş zamanı eyni zamanda qərarvermə prosesində məsuliyyət, öyrənmə bacarığı, davamlı inkişaf və komanda ilə işləməyin əhəmiyyəti kimi məsələlərə də toxunulub.

İnteraktiv formatda keçirilən görüş çərçivəsində iştirakçıların sualları cavablandırılıb və açıq müzakirələr aparılıb.

Qeyd edək ki, "Danışır təcrübə" layihəsinin əsas məqsədi müxtəlif sahələrdə uzunillik təcrübəyə malik peşəkarların iştirakı ilə nazirliyin və tabeli qurumların əməkdaşları üçün praktik bilik və bacarıqların paylaşılması, onların şəxsi və peşəkar inkişafına töhfə verməkdir.

# Təhsildə inkişaf və innovasiyalar üzrə X qrant müsabiqəsinə sənəd qəbulu başlayır




**Elm və Təhsil Nazirliyi Təhsildə inkişaf və innovasiyalar üzrə X qrant müsabiqəsini elan edir. Müsabiqədə dövlət tam orta ümumi təhsil müəssisələri və təşkilati-hüquqi formasından asılı olmayaraq istənilən ümumi təhsil müəssisəsində çalışan pedaqoji işçilər iştirak edə bilərlər.**

Müsabiqənin keçirilməsində əsas məqsəd təhsil müəssisələri və təhsilverənlər arasında sağlam rəqabətin və innovativ fəaliyyətin stimullaşdırılmasıdır.

Müsabiqəyə təqdim olunacaq layihə sənədlərinin qəbulu 13.04.2026-cı il tarixindən başlayaraq 30.04.2026-cı il tarixi də daxil olmaqla www.grants.edu.az saytı üzərindən həyata keçiriləcək.

# ADPU-da elmlər doktorları ilə müşavirə





## Ali təhsil müəssisələrinin əsas missiyalarından biri də yüksək səviyyəli elmi-tədqiqatların aparılması və beynəlxalq rəqabətədavamlı alimlərin yetişdirilməsidir

**Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) universitet rəhbərliyinin elmlər doktorantları ilə müşavirəsi keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov universitetdə kadr hazırlığı, doktorantura təhsilinin aktual məsələləri, elmlər doktorlarının hazırlanması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. Rektor vurğulayıb ki, müasir dövrdə ali təhsil müəssisələrinin əsas missiyalarından biri yalnız tədris deyil, eyni zamanda yüksək səviyyəli elmi-tədqiqatların aparılması və beynəlxalq rəqabətədavamlı alimlərin yetişdirilməsidir.**

Elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov çıxışında universitetdə elmi fəaliyyətin mövcud vəziyyəti və inkişaf perspektivləri barədə geniş məruzə edib. Professor A.Zamanov bildirib ki, son illərdə ADPU-da elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, professor-müəllim heyətinin elmi potensialının artırılması, yeni tədqiqat layihələrinin həyata keçirilməsi və əldə olunan nəticələrin tədris prosesinə tətbiqi diqqət mərkəzində saxlanılır. Qeyd olunub ki, ölkə üzrə fəaliyyət göstərən təxminən 2500 nəfər elmlər doktorundan 60-nın ADPU-da çalışması universitetin elmi potensialının mühüm göstəricisidir. Prorektor, həmçinin universitetin beynəlxalq elmi mühitə inteqrasiyasından bəhs edərək xarici ali təhsil müəssisələri və elmi mərkəzlərlə əməkdaşlığın genişləndirildiyi, birgə layihə və proqramların həyata keçirildiyini diqqətə çatdırıb. A.Zamanov gənc alimlərin yetişdirilməsinin vacibliyini xüsusi vurğulayaraq, elmlər doktorları və professorların doktorantlara elmi rəhbərlik etməsinin, onların beynəlxalq konfranslarda iştirakının təmin olunmasının və yeni elmi məktəblərin formalaşdırılmasının prioritet istiqamətlərdən olduğunu bildirib. Eyni zamanda, müasir dövrdə rəqəmsal texnologiyalar və innovativ yanaşmaların elmi fəaliyyətə tətbiqinin zəruriliyi qeyd edilib.

Qeyd edilib ki, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, beynəlxalq jurnallarda nəşrlərin sayının artırılması və elmi nəticələrin tədris prosesində tətbiqi universitetin qarşısında duran əsas vəzifələrdən biridir.

Məruzənin sonunda elmdə qocalmanın qarşısının alınması, həmçinin "Web of Science" və "Scopus" bazalarına daxil olan dövri-elmi jurnalarda məqalələri dərc olunan alimlərin rəğbətləndirilməsi sisteminin əhatəsinin genişləndirilməsi məqsədilə bir sıra təkliflər irəli sürüldü.

Beynəlxalq əlaqələr üzrə prorektor professor Mahirə Hüseynova çıxışında universitet alimlərinin ölkənin elmi həyatında fəal iştirakı və ADPU-nun elmi potensialının beynəlxalq səviyyədə tanınması istiqamətində görülən işlərdən bəhs edib. Professor M.Hüseynova bildirib ki, beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən proqramlar, akademik mübadilələr və birgə tədqiqat layihələri universitetin akademik nüfuzunun artılmasına, alimlərin elmi üfüqlərinin genişlənməsinə və qlobal elmi mühitə inteqrasiyasına mühüm töhfə verir. Prorektor bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Sosial və humanitar məsələlər üzrə prorektor professor Fikrət Rzayev isə elmi fəaliyyətin universitetlə yanaşı bütövlükdə cəmiyyətimiz və ölkəmiz üçün mühüm əhəmiyyətinə toxunaraq bu istiqamətdə daimi inkişafın, şəbəkələşmə və elmi nəticələrin paylaşılması, tətbiqi məsələlərinin önəmini qeyd edib.

Daha sonra 27 Mart — Elm Günü münasibətilə universitetin Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə keçirilən "İlin gənc alimi və tədqiqatçısı" müsabiqəsinin qalibləri mükafatlandırılıb. "Riyaziyyat və təbiət elmləri" kateqoriyası üzrə Kompüter elmləri kafedrasının doktorantı və müəllimi Nigar Əhmədli I yerə, Biologiya və onun tədrisi texnologiyası kafedrasının müəllimi Gültəkin Ərəbova II yerə layiq görülüb. "Humanitar, ictimai, pedaqoji-psixoloji elmlər" kateqoriyası üzrə Ədəbiyyat kafedrasının doktorantı Baba Əlibabaoğlu I yer, Təhsil menecmenti kafedrasının doktorantı Amid Əliyev isə III yerin sahibi olub.

Universitetin professorları — Fərrux Rüstəmov, Müseyib İlyasov və Nailə Verdizadə çıxışlarında elmi ənənələrin qorunması, elmi məktəblərin davamlılığının təmin edilməsi və gənc alimlərin bu prosesə cəlb olunmasının vacibliyini qeyd ediblər. Onlar həmçinin elmi rəhbərlik institutunun gücləndirilməsinin, doktorantların tədqiqat fəaliyyətinə sistemli yanaşmanın və elmi etik qaydalara riayət olunmasının əhəmiyyətini vurğulayıblar.

# Lənkəran peşə təhsili yeni mərhələdə:

# müasir mərkəz, yeni imkanlar



**Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin uzaqdan diqqətçəkən yeni binası regionda peşə təhsilinin inkişafı üçün mühüm mərhələdir. Müasir memarlıq üslubunda inşa edilən korpusun həyətinə daxil olan kimi burada yaradılan geniş və səliqəli mühitlə qarşılaşırsan. Bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilən bu mərkəz artıq region gənclərinə peşəkar gələcəyə aparan yeni imkanlar təqdim edir. “Azərbaycan müəllimi” mərkəzdə yaradılan şəraitlə yaxından tanış olub. Müasir otaqlar, laboratoriyalar, emalatxanalar, informatika kabinetləri və digər tədris məkanları tələbələrin həm nəzəri, həm də praktiki biliklər əldə etməsi üçün geniş imkanlar yaradır.**

### “Biz istehlakçı deyil, istehsalçı düşüncə tərzinə keçidi hədəfləyirik”

Mərkəzin direktoru Afər Kərimov deyir ki, yeni binanın istifadəyə verilməsi kollektiv və tələbələr üçün mühüm dəyişikliklər yaradıb:

“Artıq bizim tələbələr ən müasir şəraitdə ən müasir peşələrə yiyələnə, seçdikləri ixtisaslarda daha keyfiyyətli və müasir standartlara uyğun peşə təhsili ala biləcəklər. Şəxsi inkişaflarında, karyera qurmalarında geniş imkanlar və əlaqələr qazanacaq, seçdikləri peşələrlə bağlı vahid bir biznes prosesinin, sosial və innovativ layihələrin iştirakçısına çevrilə biləcəklər. Bu, imkan verəcək ki, müəllimlərimiz və tələbələrimiz texniki və xidmət sahələrində dəyişikliklərin müəllifləri kimi çıxış edə bilsinlər. Və ən əsası müasir infrastruktur bizim düşüncə tərzimizi və baxışımızı dəyişəcək. Biz “istehlakçı” deyil, “istehsalçı” düşüncə tərzinə keçidi hədəfləyirik. Qeyd olunan imkanlardan düzgün yararlana bilsək Lənkəran-Astara İqtisadi Regionunun sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq bir peşə təhsil mərkəzinə çevrilə biləcəyik”.

### 42 ixtisas, 55 qrup, 962 tələbə

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyəti yarım əsrdən artıq tarixə malikdir. 1969-cu ildə texniki peşə məktəbi kimi fəaliyyətə başlayan bu təhsil müəssisəsi illər ərzində müxtəlif inkişaf mərhələlərindən keçərək bu gün regionun aparıcı peşə təhsil ocaqlarından birinə çevrilib. 2024-cü ildə publik hüquqi şəxs kimi qeydiyyatdan keçən Mərkəzdə hazırda 42 ixtisas üzrə tədris aparılır. 55 qrupda, ümumilikdə, 962 tələbə təhsil alır. Bu ixtisaslar regionun iqtisadi potensialı və əmək bazarının tələbləri nəzərə alınmaqla müəyyənləşdirilib. 7 korpusdan ibarət Mərkəzdə 300 nəfərlik geniş akt zalı, zəngin kitabxana, idman kompleksi və uzaq rayonlardan gələn tələbələr üçün 53 yerlik müasir yataqxana binası istifadəyə verilib.

Mərkəzdə elektrik və hibrid avtomobillərinin texniki xidməti, CNC texnologiyaları, kibertəhlükəsizlik və alternativ enerji kimi müasir sahələr üzrə kadr hazırlığı regionun texnoloji inkişafına töhfə verir.

Afər Kərimov bildirir ki, məqsəd tələbələri əmək bazarında rəqabətqabiliyyətli mütəxəssislər kimi yetişdirməkdir. İxtisasların







seçimi də məhz bu prinsip əsasında formalaşdırılıb.

### “Tələbələr praktiki bacarıqlarını real şəraitdə sınayırlar”

Mərkəzin informatika müəllimi Fidan Qasımzadə deyir ki, yeni bina tədris prosesinə də müsbət təsir göstərib: “Yeni binamız dərsləri daha maraqlı və interaktiv edib. Tələbələr praktiki bacarıqlarını real şəraitdə sınayırlar, səhvlərdən dərhal nəticə çıxarırlar. Bu da onların öyrənmək həvəsini artırır. Ümumiyyətlə, peşə təhsili gənclərə bacarıqlı və özünə inamlı mütəxəssis kimi yetişmək imkanı verir. Bu, onların gələcək karyerasını uğurla qurmasına və həyatdakı məqsədlərinə çatmasına böyük dəstəkdir”.

### “Tələbələr real bağça mühitində istehsalat təcrübəsi keçirlər”

Mərkəzdə yeni yaradılmış ixtisaslardan biri də dayəlikdir. Bu ixtisasın tədrisi prosesində tələbələrə uşağın psixologiyası, erkən inkişaf, gigiyena qaydaları, ilkin tibbi yardım və kommunikasiya bacarıqları öyrədilir.

Dayəlik üzrə peşə təlimi ustası Təranə Əliyevanın sözlərinə görə, bu ixtisasın açılması regionda peşəkar uşaq baxımı sahəsində kadrlara artan tələbatla bağlıdır: “Yeni binada tədris üçün müasir auditoriyalar və praktiki məşğələ otaqları yaradılıb. Praktiki dərslər real situasiyalar əsasında təşkil olunur və tələbələrin nəzəri biliklərini tətbiq etməsinə xüsusi diqqət yetirilir. Tələbələr real bağça mühitində istehsalat təcrübəsi keçirlər. Bu ixtisas üzrə məzun olan gənclər üçün həm yerli, həm də xarici əmək bazarında geniş iş imkanları və davamlı inkişaf perspektivləri mövcuddur”.

Təranə müəllim bildirir ki, bu təcrübə onlarda məsuliyyət hissinin, operativ qərarvermə və ünsiyyət bacarıqlarının formalaşmasına mühüm töhfə verir.

### “Məzunların bir hissəsi təcrübə keçdikləri işəgötürənlər tərəfindən işlə təmin olunurlar”

Mərkəz dövlət və özəl sektorla əməkdaşlığa da xüsusi önəm verir. Hazırda 30-a yaxın müəssisə ilə əməkdaşlıq həyata keçirilir. Dual təhsil modeli isə tələbələrə nəzəri biliklərlə yanaşı real iş mühitində praktiki bacarıqlar qazanmağa imkan yaradır. Direktorun sözlərinə görə, bu yanaşma məzunların əmək bazarına daha tez inteqrasiya olunmasına kömək edir: “Dual peşə proqramının üstünlüyü ondadır ki, tələbələr bu proqram çərçivəsində tədrisin 70%-ni seçdikləri ixtisas üzrə praktiki işlə məşqul olurlar. Məzunların bir hissəsi təcrübə keçdikləri işəgötürənlər tərəfindən işlə təmin olunurlar. Müəssisələrlə əməkdaşlıq regionda peşə təhsilinin keyfiyyətini artırır, innovativ mühitin formalaşmasını və regionun sosial-iqtisadi inkişafı dəstəkləyir. “Şəhərsalma və Memarlıq İli” çərçivəsində özəl sektorla birgə “SMART City” layihəsinin icrasına başlamışıq. Alternativ enerji ilə çalışan, müasir şəhər infrastrukturuna və vətəndaşların rahatlığına köməklik edən bir qurğunu Lənkəran şəhərində yerləşdirmişik. Layihə çərçivəsində bu istiqamətdə müxtəlif işləri Lənkəran, Astara və Lerikdə həyata keçirməyi planlaşdırırıq”.

### “2025-ci ildə qadın məzunların sayı kişilərdən çox oldu”

Qadınların peşə təhsilindəki rolundan söhbət düşəndə direktor maraqlı bir faktı da açıqlayır: “Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində işə başlayanda mərkəzdə 1 xanım təhsil almağa gəlmişdi. Hazırda mərkəzdə müxtəlif ixtisaslarda 400 qadın təhsil alır. Bu, ümumilikdə, peşə təhsilinə marağın, diqqətin və etibarlılığın göstəricisidir. 2025-ci ildə Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində məzun olan qadınların sayı kişi tələbələrin sayından çox oldu”.

### “İstehsal etdiyimiz smart qurğu arıçılıq sahəsinin ölkə üzrə inkişafına xidmət edəcək”

Direktor son illərdə kənd təsərrüfatı sahəsində peşə təhsili almaq üçün müraciət edənlərin sayında artım olduğunu da vurğulayır: “Ölkəmizin inkişafı ilə bağlı təsdiq edilmiş “Strateji yol xəritə”lərində Lənkəran-Astara iqtisadi regionu turizm və kənd təsərrüfatının inkişafında əhəmiyyətli yer tutur. Bunu nəzərə alaraq mərkəzdə hər il bu sahələrdə kadr hazırlığı üçün ixtisaslar sifariş verilir. Bir müddətdir ki, arıçılıq sahəsinin inkişafı ilə bağlı əməkdaşlıq etdiyimiz arıçılıq təsərrüfatı ilə “Bal Team” layihəsini icra edirik. Layihənin sponsoru yoxdur, görülən bütün işlər əməkdaşlıq nəticəsində reallaşır. Bu layihə Lənkəran-Astara iqtisadi regionunda kənd təsərrüfatı sahəsində innovasiyalar hakatonunun qalibidir. Birgə istehsal etdiyimiz smart qurğu arıçılıq sahəsində ölkə üzrə data məlumatlarının yığılmasına, arı ailələrinin məsafədən idarə edilməsinə, arıçılıq sahəsində aqroturizmin inkişafına xidmət edəcək. Təhsil turizmi, qastronomiya turizmi, aqroturizmlə də bağlı maraqlı layihə ideyalarımız var. Düşünürük ki, bu sahələrlə bağlı müxtəlif qurumlar layihələrin icrasına dəstək verə biləcəklər”.

### “Bu sistem ölkəmizdə peşə təhsilində ilk dəfə tətbiq olunur”

Afər Kərimov qeyd edir ki, rəqəmsallaşma və süni intellektin tədrisə inteqrasiyası mərkəzin əsas inkişaf istiqamətlərindən biridir:

“Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin saytının elektron tədris bölməsində süni intellektin imkanlarını tətbiq etməklə müxtəlif ixtisaslar üzrə dərs materialları hazırlanıb yerləşdirilir ki, tələbələr dərslərə rahat çıxış imkanına malik olsunlar, müəllimlər isə öz materiallarını paylaşa bilsinlər. Bu sistem ölkəmizdə peşə təhsilində ilk dəfə tətbiq olunur və bu yanaşma mərkəzimizi süni intellektin tədrisə inteqrasiyası ilə bağlı innovativ və qabaqcıl müəssisə kimi fərqləndirir. Rəqəmsallaşma istiqamətində sayt üzərində yaradılmış “ZəkAİ” süni intellekt bələdçisi istifadəçilərə mərkəz və ixtisaslar barədə suallara operativ cavab verir. Eyni zamanda “ZəkAİ” peşə ixtisası seçmək istəyənlərə karyera bələdçiliyi edə bilir”.

### “2026-2030-cu illər üçün “Strateji inkişaf planı””

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi qarşıdakı illərdə də fəaliyyətini genişləndirməyi planlaşdırır. Hazırda Mərkəzin 2026-2030-cu illər üçün “Strateji inkişaf planı”nın hazırlandığını bildirən direktor Lerikdə mövcud korpusun yenilənməsini, Astarada yeni korpusun yaradılmasını və rəqəmsallaşma istiqamətində layihələrin həyata keçirilməsini mərkəzin əsas hədəfləri sırasında olduğunu qeyd edir:

“Hər il Astaradan Lənkərana 200-300 tələbə peşə təhsili almağa gəlir. Astarada mərkəzin korpusunun yaradılması peşə təhsilinin əlçatanlığına xidmət edəcək və daha çox vətəndaşlarımız peşə təhsili almaq üçün dövlət dəstəyindən faydalanacaq”.

Afər Kərimovun sözlərinə görə, məqsəd mərkəzi regionda təhsil, biznes və dövlət sektorunun əməkdaşlığı üçün innovativ platformaya çevirməkdir.

Şübhəsiz ki, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində yaradılan müasir infrastruktur və tədris imkanları region gənclərinin peşəkar bacarıqlara yiyələnməsinə, əmək bazarında rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşmasına mühüm töhfə verəcək.

**Nilufər HACILI,**
**Lənkəran-Astara üzrə regional təmsilçi**







# Müdafiə sənayesi və yüksək texnologiyalar sahəsində peşə hazırlığının səmərəliliyi artırılır

***Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə “Bayraktar Teknoloji Azərbaycan” MMC arasında Anlaşma Memorandumu imzalanıb***

4 mart 2026-cı il tarixində Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə “Bayraktar Teknoloji Azərbaycan” MMC arasında Anlaşma Memorandumu imzalanıb.

Memorandumu Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı və “Bayraktar Teknoloji Azərbaycan” MMC-nin direktoru Hüseyin Topuz imzalayıblar.

Sənədin imzalanmasında əsas məqsəd müdafiə sənayesi və yüksək texnologiyalar sahəsində peşə hazırlığının səmərəliliyinin artırılması, əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və ixtisaslı kadrların hazırlanması, peşə təhsili müəssisələri ilə sənaye arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi və innovativ yanaşmaların tətbiqinin təşviq edilməsidir.

Memoranduma əsasən tərəflər arasında peşə təhsili müəssisələrində təhsilalanların istehsalat təcrübəsinin təşkili, müəllim və tələbələr üçün ixtisasartırma və təcrübə proqramlarının həyata keçirilməsi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının birgə planlaşdırılması və praktiki təlimlərin təşkili sahəsində koordinasiyalı fəaliyyətlər nəzərdə tutulur.

Tərəflər bu əməkdaşlığın ölkədə peşə təhsilinin inkişafına, sənaye ilə təhsil arasında əlaqələrin sistemli şəkildə qurulmasına və müdafiə sənayesində yerli insan kapitalının gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıblar.

# Tailandda təhsil üçün təqaüd proqramı elan edildi

**Tailand Krallığının Ali Təhsil, Elm, Tədqiqat və İnnovasiya Nazirliyi tərəfindən əcnəbi tələbələr üçün 2026—2027-ci tədris ili üzrə Tailand Təqaüdləri Proqramı elan olunub.**

"Azərbaycan müəllimi" xəbər verir ki, bu barədə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi məlumat yayıb.

Proqram çərçivəsində Tailandın müxtəlif ali təhsil müəssisələri tərəfindən əcnəbi tələbələrə bakalavriat, magistratura və doktorantura səviyyələri, eləcə də mübadilə və təlim proqramları üzrə təhsil almaq imkanı yaradan təqaüdlər təqdim olunur.

Müraciət üçün son tarixlər, tələb olunan sənədlər və təqaüd çərçivəsində qarşılanan xərclər hər bir ali təhsil müəssisəsinin daxili qaydalarına uyğun olaraq müəyyən edilir. Təqaüd proqramları və müraciət qaydaları barədə ətraflı məlumatla bu keçid vasitəsilə tanış olmaq mümkündür.

Qeyd edək ki, proqramda iştirak etmək istəyən namizədlər müraciətlərini birbaşa müvafiq Tayland ali təhsil müəssisələrinə təqdim etməlidirlər.

# QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ!

**Qərbi Azərbaycanın (indiki Ermənistan) Ağbaba, Basarkeçər, Çəmbərək, Karvansaray, Barana, Qarakilsə, Calaloğlu, İrəvan, Vedi, Zəngibasar, Əştərək, Hamamlı şivələrində "aş" komponentli məişət və xörək adlarını bildirən sözlər böyük bir lay təşkil edir və onların tarixi-müqayisəli aspektdə tədqiqi xüsusi önəm daşıyır. "Az aşım, ağrımaz başım", "Nə tökərsən aşına, o da çıxar qaşığına" kimi atalar sözlərində "aş" qida bildirən leksik vahidi "yemək" anlamında öz qədim mənasını qoruyub saxlamışdır ki, bu mənaya Ağbaba şivəsində də rast gəlirik. "Aş" komponentli leksik vahidləri struktur cəhətdən aşağıdakı qruplara bölmək olar: 1) Sadə quruluşda olanlar; 2) Düzəltmə quruluşda olanlar: aşxana, azbaz, aşqar; 3) Mürəkkəb quruluşda olanlar: ayrannıaş, qatıqaşı aşqazanı, aşdan-başdan, aşqara, süddaş; 4) Söz birləşməsi modelində olanlar: mərciməkli aş, boranılı aş, əvəlikli aş, şüyüdlü aş, boyanalı aş, yarmalı aş, qovurmalı aş, turaclı aş, cücəli aş, xəmir aşı və s. Müxtəlif bayram və mərasimlərlə bağlı bişirilən aşlar Qərbi Azərbaycanın mətbəx mədəniyyətində zənginliyi ilə diqqəti cəlb edir: Novruz aşı, bəy-gəlin aşı, orucluq aşı, ramazan aşı, ehsan aşı və s. Qərbi Azərbaycan şivələrində qədim türk mənşəli və təkhecalı "aş" sözü əsasında işlənir: 1) "ərzaq, yemək" (Çəmbərək); 2) "əriştə" (Basarkeçər); 3) "plov" (Çəmbərək, Kalinini, Dərələyəz, Zəngibasar və bütün şivələrdə). Birinci məna arxaikləşsə də, Azərbaycan dilinin Salyan dialektində də qorunub saxlanılmışdır ki, onu 1948-1953-cü illərdə Ermənistandan deportasiyaya məruz qalmış soydaşlarımız öz canlı nitq aktlarında mühafizə etmişlər. İkinci məna "əriştəaşı" söz birləşməsi modelində Qərbi Azərbaycanın Vedi, Zəngibasar, Dərələyəz şivələrində və Naxçıvan dialektində "xörək növü" anlamında işlənir, bu xörək nazik uzunsov kəsilmiş xəmirdən hazırlanır və sulu olur. Üçüncü mənada "plov" sözü Azərbaycan ədəbi dilinə məxsus olub, rus dilindən keçmişdir. "Əriştə plovu" sintaktik üsulla yaranmış xörək adına əsasən Cənubi Azərbaycanın Təbriz dialektində əriştə plovunun bişirilmə qaydası belədir: Düyü qaynadılır və ona dəmə qoyulma ərəfəsində qovrulmuş ət, soğan, xurma əlavə olunur və bu ərzaqlar qazana lay-lay döşəməklə icra edilir. Ümumtürk dillərində artıq leksik vahid kimi işlənən "əriştə" sözünü farscadan alınmış söz kimi götürüb izah edənlər yanılırlar. Bu söz "əriş" və "tə" müstəqil leksik vahid və şəkilçi modeli əsasında formalaşmışdır. Məlumdur ki, əriş palaz, kilim, gəbə toxunan dəzgahda dikinə gedən ipinə deyilir və "əriştə" də ip kimi uzun olduğuna görə ona bənzədilərək xörək adı düzəldilmişdir. Azərbaycan dilində əriştə şəklində işlənən xörək adı cüzi fonetik dəyişikliklərlə Türkiyə türkcəsində (erişte), başqırdalarda (tokmaş), qazaxcada (kespe), qırğızcada (keşme), özbəkcədə (üqra, üqriax), tatarcada (tukmac), türkməncədə (üpas), uyğurcada (çöp) formalarında çıxış edir və ümumi bir xörəyin adını bildirir.**

# Qərbi Azərbaycanın mətbəx mədəniyyəti

## Qida və məişət əşyalarının adlarını bildirən sözlərin tarixi-linqvistik təhlili



**Mahirə HÜSEYNOVA,**
**filologiya elmləri doktoru, professor**

"Kitabi-Dədə Qorqud" dastanının müxtəlif boylarında "aş" sözü "xörək, yemək, bişmiş" mənalarında bir neçə dəfə işlədilmişdir. XI əsrin dahi türkoloqu Mahmud Kaşğarinin "Divanü-lüğət-it-türk" əsərində "aş" sözünün "yemək" mənası göstərilmiş, "-dın, -ı, -ığ, -ın, -tı, -dı, -ar" və s. şəkilçiləri ilə birlikdə çıxış edən formalarına aid nümunələr verilmişdir. Məs: Mən anqar aş tuturdum = Mən ona aş daddırdım; aş tatıldı = yemək dadıldı; aş boğazda tügüldü = yemək boğazda qaldıaş tıkındı = aş tıxıldı, yeyildi; olanqar aş tıkıttı = o ona zorla aş tıxdırdı; yağlıq aş məni bükütti = yağlı yemək məni asqırtdı (yağlı aş ürəyinə toxundu, qarnım doymadığı halda yeməkdən çəkindim)". "Aş" sözü XI əsrdə digər sözlərlə omonimlik yaratmış və bu barədə Mahmud Kaşğarinin "Divan"ında belə bir qeyd verilmişdir: "Bir qabı sıxaraq təmir etməyə də "aş" deyilir. Ayaq aşla = qabı sıxaraq təmir et". Kaşğari "aş" sözü ilə eyni kökdən olan "aşa" (yemək, aş yemək mənasında), "aşaç" (qazan, tava mənasında), "asat" (yemək yedirtmək), "asbar" (saman, kəpək, ot kimi şeylərin qarışığından ibarət yem mənasında), "asıç" (qazan mənasında), "aşlıq" (aşxana, mətbəx mənasında) sözlərini də cümlələrin tərkibində vermişdir. Böyük lüğətçi göstərmişdir ki, "Xaqaniyyə türkləri "aşa" sözünü böyüklərin ziyafətində işlədirlər. Digər türklər isə fərq qoymadan bu sözü hamı haqqında işlədirlər, doğrusu da belədir".

1969-cu ildə nəşr edilmiş "Qədim türk lüğəti"ndə "aşa" sözü "yemək, aş yemək" mənasında verilmiş və onun omonimik variantlarının mənası "istifadə etmək, faydalanmaq", "yeməyin bəhrəsini dadmaq", "xidmətinin bəhrəsini almaq"kimi göstərilmişdir. Lüğətdə eyni zamanda "aşa" sözü "ye" feilin əmr formasının paraleli kimi də əksini tapmışdır. "Aş" xörək növü orta əsrlərdə daha çox mis qazan və tavalarda bişirilmiş və Kaşğari bu məişət əşyalarının ümumi adının "asac// asıç"şəkillərində işləndiyini də qeyd edərək belə bir atalar sözü də vermişdir: "İki qoçnqar başı bir azaçta pızmaz = İki qoçun başı bir qazanda qaynamaz". Kaşğarı bundan sonra yazır ki, "Bu söz bir yerə yağızata, ancaq birinin olması gərəkən iki başluğ və ya iki bəy haqqında söylənir".

Mahmud Kaşğarinin "Divan"da qeydə aldığı "aş" komponentli leksik vahidlərin bəziləri arxaikləşsə də, bəziləri çağdaş dialekt və şivələrimizdə işlənir. Məsələn, "aşlık" sözü "aşxana, mətbəx" mənasında Qərbi Azərbaycanın Ağbaba kənd şivələrinin əksəriyyətində işlənir. Qeyd etməliyik ki, "aşlık" sözü "buğda" mənasında Kaşğarinin verdiyi bir şeir parçasında da çıxış etmişdir:

*Ol kar kamuğ kısın inər,*
*Aşlık, tarığ anın önər,*
*Yaşlak yağı məndə tmar,*
*Sən gəlibən təprəşür* - bu parçanın tərcüməsi belədir:
*Bütün qış qar yağır,*
*Bağda taxıl ondan bitər,*
*Yevuz yağı məndə dincələr,*
*Sən gəlincə tərpənər*

(Yazla qışın bəhsləşməsini təsvir edir: ey qış, qar-yağış səndə yağar, ey yaz, toxum, buğda səndə bitər, ey qış, yavuz yağı sən girəndə dincələr, ey yaz, sən gələncdə yağı hərəkətə keçər).

Cənubda yaşamış dahi Azərbaycan şairi M.Şəhriyarın "Dünya" adlı şeirində "aş" sözü "mərasim xörəyi" anlamında işlənmiş, həm cavanların, həm də qocaların dünyalarını dəyişməklə verilən ehsana işarə olunmuşdur:

*Cavanların aşın yedin,*
*Ocalar bozbaşın yedin,*
*Qəbirlərin daşın yedin,*
*Özü baqi qalan dünya.*

Azərbaycanın cənub bölgəsində olduğu kimi, digər yerlərində də, xüsusən də, qərb hissəsində cavan adamlar dünyasını dəyişdikdən sonra onlara yas mərasimi təşkil olunaraq ehsan verilmişdir ki, cavanlar üçün süfrəyə mütləq aş, qocalar üçünsə bozbaş xörəyi vacib hesab olunardı və bu ənənə bu gün də davam etdirilir və buna da "mərasim aşı" deyilir. Bu növ aş orta əsrlərdə Həcci, Məkkəni, Kərbəlanı ziyarət edib qayıdanlar üçün də təşkil olunurdu və buna "qonaqlıq aşı" deyilirdi. Bu, Qərbi Azərbaycanın bütün mahallarında icra edilirdi. Belə ki, Həcci ziyarətdən qayıdan şəxsin kənd cammatı ocağının başına toplaşaraq və ona təşəkkürlərini çatdırar, hacı, kərbəla, məşhədi titullarına sahiblənən şəxs isə onlara həmin yerlərdən gətirdiyi hədiyyələri paylayar, ardında isə xörəyindən ziyafət verərdi. Həcc aşının hazırlanma qaydası belə olmuşdur: bir kisə (50 kq) uzun düyü götürülür, islağa qoyulur, bir müddətdən sonra isə qazanlarda ocağın üstündə qaynadılır, süzülür. Ayrıca bir qazanda isə onun üçün qara hazırlanır və buraya daxildir: "3 baş qoyunun cəmdəyinin xırda-xırda doğranmış hissələrindən ət, soğan, kişmiş, xurma, duz, zəfəran, ədviyyatlar və əridilmiş yağ dəmə qoyulmuş aşın üzərinə tökülür ki, xörək daha dadlı olsun".

Qərbi Azərbaycanın bütün bölgələrində, xüsusən də Dərələyəz mahalında qışın axır ayındakı 4 çərşənbədə aşlar bişirilən və qaynadılmış düyünün suyu, yəni həlimi atılmazdı və ona bişmiş düyüdən əlavə edib içələrdi ki, buna "həlim aşı" deyirdilər. Qışın axır çərşənbə axşamlarının hər birində süfrədə mütləq aş olardı və bu da çərşənbə aşı adlanardı. Mahalın bütün kəndlərində varlı ailələr qaralı, yəni ətli, xurmalı, kişmişli, gavalılı, alçalı aş bişirdikləri halda, kasıblar da süfrəyə süddaş qoyardı və bu aş növlərinin hər ikisi ruzi-bərəkət rəmzi hesab edilərdi. Axır çərşənbə günü qazanlarda aş aparıb qəbirləri ziyarət etmək bir ənənə halı almışdır ki, bu da onunla bağlı idi ki, güya ölülər öz ailələrinin güzəranından, dolanışından xəbər tuturlar. Bu növ aşa "ehsan aşı" deyərdilər. Varlı və kasıblığından asılı olmayaraq Dərələyəzdə bütün evlərdə hicri təqvimilə hər il martın 8-9-10-da, miladi təqvimilə isə martın 21-22-23-də aş bişirilərdi və buna "Novruz aşı" deyilirdi. Novruz bayramına 15 gün qalmış aş üçün müxtəlif düyülər, kişmişlər, xurmalar, gavalı, alça qurusu və s. xuruşlar alınardı. Bu bayramda bişirilən aşdan qohum-qonşular birbirinə pay göndərərdilər və yaslı-yaralı ailələrə də aşla bərabər, digər şirniyyat növlərindən də pay verilərdi. Bütün evlərdə süfrəyə aşla bərabər yeddi növ şirin nemət düzülərdi, yas olan evlərdə isə halva qoyulardı.

**Varlı və kasıblığından asılı olmayaraq Dərələyəzdə bütün evlərdə hicri təqvimi ilə hər il martın 8-9-10-da, miladi təqvimi ilə isə martın 21-22-23-də aş bişirilərdi və buna "Novruz aşı" deyilirdi.**

Toy mərasimi ilə bağlı bir neçə aş növü Qərbi Azərbaycanın bütün bölgələrində hazırlanardı. Nişan mərasimi toya hazırlığın bünövrəsi hesab olunurdu. Bundan bir qədər sonra, yəi toya 3 gün qalmış qız evində xınayaxma məclisi keçirilərdi və bu mərasim başa çatdıqdan sonra süfrəyə xörəklər gətirilərdi ki, bu nemətlərin içərisində əsas yeri qızın şərəfinə bişirilmiş aş tutardı. Xınayaxma mərasimində bişirilən aşdan oğlan evinə də göndərilərdi ki, bu adət indi də qalmaqdadır.

Toy mərasiminə aid olan aş növlərindən bir də müəyyən edilmiş nişan dövrü qurtarandan sonra paltarkəsdi aşının bişirilməsidir. Bu aş növünü hazırlamaq üçün düyü, ət, xura, kişmiş, alça qurusu, sarıkök, zəfəran və digər ədviyyatlar oğlan evindən aparılır, paltar tikmək üçün dərzilər öz işləri ilə məşğul olarkən, digərləri isə xörəyi hazırlamaqla məşğul olur ki, mərasim sonunda süfrəyə aş gətirilir və bu işlərin hamısının əziyyətini və xərcini oğlan tərəf çəkir və buna da folklorda "paltartikdi" deyilir. Qeyd etməliyik ki, bu mərasimdə bişirilən aş bolluq, bərəkət rəmzi sayılsa da, oğlan evindən qız evinə aparılan ərzaqların içərisinə istiot, soğan, duz, xörəyi bişirmək üçün kömür olmalıdır, çünki bunlar darlıq, qaranlıq, ayrılıq əlaməti hesab olunur.

Toy mərasimində "bəy-gəlin aşı"nın verilməsinə ayrıca vaxt ayrılır və bu mərasim "Uzundərə" xalq rəqsinin sədları altında icra edilir, bəy də öz növbəsində rəqqaslara xələt verir. Ümumiyyətlə, tarixən İrəvan və Qərbi Azərbaycanın müəyyən bölgələri ipək yolunun üzərində yerləşdiyinə görə, bu yerlərdə aşxanalar mövcud olmuş, informatorların verdiyi məlumata əsasən təkcə İrəvan şəhərində XX əsrin əvvəllərində 50-yə qədər aşxana olmuşdur, bu aşxanalarda təkcə plov deyil, digər növdən olan digər xörəklər də hazırlanaraq yerli və xarici səyyahlara təqdim edilmişdir. Rusiyalı səyyah və məşhur etnoqraf İlya Nikolayeviç Berezin XIX əsrin ortalarında Dağıstanda başlamış Qafqazı qarış-qarış gəzmiş və özünün 1850-ci ildə yazdığı "Dağıstana və Zaqafqaziyaya səyahət" əsərində İrəvan aşxanalarında verilən yarpaq dolması, kələm dolması, badımcan dolmasının hazırlanması qaydasından bəhs etmişdir. Müəllif onların və digər yeməklərin ümumi adının "aş" olduğuu qeyd etmişdir. "Aş" sözü "plov, yemək, taxıl, çörək" anlamında bütün türkcələrdə işlənir və Xakas, Altay, qazax, qırğız, başqırd, noqay dialektlərindəki "taxıl, çörək" anlamı onları digər türkcələrdən fərqləndirsə də, "plov, yemək" mənası universalilik yaradır.

Tarixən formalaşmış "aş" adlarının, yəni bu tip komponentli mürəkkəb quruluşlu xörəklərin adlarının bəziləri təkcə "plov" mənasını bildirməyib. Məsələn, "qatıqaşı, ayranaşı, süddaş və s. yemək adlarında "plov" mənası deyil, xörək anlamında işlənir...".

XIX əsrdə Zəngəzur qəzasının Meğri rayonunun Nüqədi, Labafin, Şəhərcik, Kığı və s. kəndlərdə Novruz bayramı günü evdən kənarda bişirilən "plov" növünə "aşdan-başdan" deyirdilər ki, bu gün də həmin bölgədən olan soydaşlarımız həmin xörəyi bişirirlər.

Beləliklə, əsasən düyü, ət, xurma, kişmiş, gavalı, ərik qurusundan, soğan, sarıkök, zəfəran və s. xuruşlardan hazırlanmış "aş" tarixən Qərbi Azərbaycanın bütün bölgələrində, Qafqazda türklər yaşayan ərazilərdə, Tükiyədə, Özbəkistanda, Qazaxstanda, Türkmənistanda, Qırğızstanda, Volqa boyu türklər yaşayan regionlarda geniş yayılmışdır və bunları semantik baxımdan aşağıdakı qruplara bölə bilərik:

1) Bayram aşları: bu növ aşlara Novruz aşı da deyilir və 5 növü Güney və Qərbi Azərbaycanda hazırlanır ki, bu semantik qrupa 4 çərşənbə aşı və sonda Novruz bayramı günü bişirilən aş daxildir.

2) Orucluq aşı: Bu da Ramazan bayramında hazırlanan aş növüdür ki, Azərbaycan, Özbəkistan, Türkmənistan, Türkiyə, İraq və Cənubi Azərbaycanın əksər bölgələrində hazırlanır.

3) Ziyafət aşları: Buraya Kərbəla, Həcc, Məşhəd aşları daxildir ki, həmin müqəddəs ocaqlara səfər edənlərin şərəfinə hazırlanır və bu növ aşlar Orta Asiya respublikalarında, Qafqazda, Cənubi Azərbaycanda bişirilir.

4) Toy aşının növrinə nişan, paltarbiçdi, bəy-gəlin aşları daxildir ki, bunlar da toy ərəfəsində və toy keçirilən gün hazırlanır.

5) Yas aşları dünyasını dəyişən şəxsin 3-7-40 mərasimində hazırlanan xörək növünə aiddir ki, bunlar da təxminən eyni cür hazırlanır və Orta Asiya respublikalarında süfrəyə ehsan aşı kimi verilir.

Azərbaycan leksik sistemində "aş" komponentli yemək adlarını semantik baxımdan aşağıdakı kimi qruplaşdırmaq olar:

**1.** Qazmaqlı aş. Yuxa çörək növü qaynadılmış düyünün qazanın alt hissəsinə qoyulur, aşın üstünə bolluca kərə yağı tökülməklə hazırlanır və daha çox aş növü Azərbaycan mətbəxinə məxsusdur.
**2.** Qarası ətli aş. Bu xörək növü qoyun, mal, dəvə ətindən hazırlanır və digər ədviyyatlar da əlavə edilərək süfrəyə verilir və bu aş növü müsəlmanlar yaşayan Şərq ölkələrində bişirilir.
**3.** Meyvə qurusundan hazırlanan aşın tərkibində alça, xurma, gavalı, kişmiş, zoğal olur və türk xalqalarının mətbəxində hazırlanır.
**4.** Aşın "səbzi plov" növü yeməli bitkilərdən (türşəng, əvəlik, soğan, şüyüd, pazı yarpağı və s.) hazırlanır və daha çox Azərbaycan mətbəxinə məxsusdur.
**5.** Ev quşlarının ətindən hazırlanan aş növlərinə "çolpa plov", "hinduşka plov", "qaz plovu", "ördək plovu", "xoruz plovu" aiddir ki, bu quşların doğranmış ətləri qazanda aşın alt hissəsinə qoyulmaqla bişirilir.
**6.** Çöl quşlarının ətindən hazırlanan aş növlərinə "qırqovullu aş", "turaclı aş", "bildirçin aşı", "kəklik aşı", "qaratoyuq aşı" daxildir və bu növ xörək qədimdə bəylərin, xanların süfrələrində olardı, indi də bəzi bölgələrdə öz mövsümündə bişirilir.
**7.** Bitki tərkibli aş növlərinə "boranılı aş", "şüyüdlü aş", "əvəlikli aş" daxildir və bunlar həmin bitkilərin qurudulmuş yarpaqlarından hazırlanır.

**Beləliklə, "aş" xörək növləri, əsasən "plov" mənasında Azərbaycan türklərinin milli mətbəx mədəniyyətinin ən qədim və qiymətli nümunələri kimi xalq təfəkkür və dünyagörüşü əsasında tarixən yaranmış, istər struktur, istərsə də semantik əlamətləri ilə çağdaş günümüzə qədər gəlib çıxan etnoqrafik xalq yaddaşında öz dürüstlüyünü mühafizə edən və türkcələri leksik-semantik cəhətdən zənginləşdirən dəyərli linqvistik elementlərdir.**

# Tallin Sammitindən mesajlar

**Estoniyanın Tallin şəhərində Müəllim Peşəsi üzrə Beynəlxalq Sammit (International Summit on the Teaching Profession 2026 -ISTP 2026) keçirilib. “Dəyişikliklər: Gələcək təlim mühitində müəllimlər və təhsilalanlar” adlı sammitdə müəllimlərə dəstək vermək və süni intellekt dövründə təhsili formalaşdırmaq üçün müzakirələr aparılıb. Sammit təhsil nazirləri, müəllimlər birliklərinin nümayəndələri və təhsil sistemi rəhbərləri də daxil olmaqla, PISA tədqiqatında lider olan təxminən 20 ölkəni (Avstraliya, Kanada, Estoniya, Finlandiya, İslandiya, Latviya, Litva, Norveç, Polşa, Portuqaliya, Sinqapur, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Ukrayna, Birləşmiş Krallıq və s.) bir araya gətirib. İştirakçılar müəllimlik peşəsinin gələcəyini və təhsil sistemlərinin sürətlə dəyişən dünyaya necə uyğunlaşa biləcəyini müzakirə ediblər.**



# Müəllimlər olmadan güclü təhsil sistemi mümkün deyil



Kristina Kallas

## “Təhsil bizim milli kimliyimizin və gələcəyimizin əsas hissəsidir”

Estoniyanın təhsil və tədqiqat naziri Kristina Kallas “Estoniya təhsilinin hekayəsi” (“The Story of Estonian Education”) adlı məruzəsində bildirib ki, bu sammit bizə təhsilin gələcəyi və müəllim peşəsinin inkişafı barədə birlikdə düşünmək və müzakirə etmək imkanı yaradır. “Estoniya üçün təhsil sadəcə dövlət siyasəti deyil. Təhsil bizim milli kimliyimizin və gələcəyimizin əsas hissəsidir. Dünyaya danışdığımız hekayələrdən biri məhz Estoniya təhsilinin və rəqəmsal inkişafının hekayəsidir. Bu hekayə bizim üçün unikaldır və paylaşmağa dəyər. Estoniya kiçik ölkədir. Əhalimiz azdır və təbii resurslarımız çox deyil. Lakin bizim ən böyük sərvətimiz insanlarımızdır. Buna görə də Estoniya tarixən təhsilə çox böyük əhəmiyyət verib. Dünyada Estoniya haqqında danışanda çox vaxt iki hekayə qeyd olunur: biri bizim rəqəmsal dövlətimiz, digəri isə təhsil sistemimiz. Bu iki hekayə əslində bir-biri ilə sıx bağlıdır”.

## Müəllim – təhsil sisteminin mərkəzində

Kristina Kallas diqqətə çatdırıb ki, “Estoniyanın təhsil sistemi uzun tarixə malikdir. Kiçik bir ölkə olmağımıza baxmayaraq, biz həmişə inanmışıq ki, ən böyük sərvətimiz insanlarımızdır.-Tarix boyu təhsil Estoniya cəmiyyətinin əsas dayaqlarından biri olub. Məktəblər yalnız bilik ötürən yerlər deyil, həm də cəmiyyətin inkişafını formalaşdıran institutlardır. Bu gün Estoniya dünyada yüksək nəticələr göstərən təhsil sistemlərindən biri kimi tanınır. Bunun səbəbi yalnız kurikulum və ya texnologiya deyil. Bunun əsas səbəbi müəllimlərimizdir”.

Nazir qeyd edib ki, “Estoniya təhsil sisteminin əsas xüsusiyyətlərindən biri etimaddır. Bizim sistemimiz müəllimlərə güvən üzərində qurulub. Biz inanırıq ki, müəllimlər öz işlərinin ən yaxşı mütəxəssisləridir. Onlar şagirdlərinin ehtiyaclarını ən yaxşı anlayan insanlardır. Buna görə də Estoniyada müəllimlərə yüksək peşəkar muxtariyyət verilir. Onlar dərs metodlarını seçməkdə və tədris prosesini təşkil etməkdə böyük sərbəstliyə malikdirlər. Biz hesab edirik ki, yaxşı təhsil sistemi yalnız qaydalar və standartlarla qurulmur. O, güvən və məsuliyyət üzərində qurulmalıdır”. Nazir qeyd edib ki, bizim təhsil sistemimizin mərkəzində müəllim dayanır.

## Müəllim peşəsinin dəyəri

Onun sözlərinə görə, Estoniya təhsil sisteminin digər əsas prinsipi bərabərlikdir: “Biz istəyirik ki, hər bir uşaq harada yaşamasından və hansı ailədən gəlməsindən asılı olmayaraq keyfiyyətli təhsil alsın. Bizim məktəblərimiz arasında fərqlər çox böyük deyil. Bu isə o deməkdir ki, istənilən məktəbdə oxuyan şagird yaxşı təhsil ala bilər. Bu yanaşma sosial bərabərsizliyi azaltmağa kömək edir və cəmiyyətin ümumi inkişafına müsbət təsir göstərir”.

Nazir bildirib ki, yaxşı təhsil sistemi müəllimlər olmadan mümkün deyil. “Estoniyada müəllim peşəsi cəmiyyət tərəfindən hörmət edilən və yüksək qiymətləndirilən peşələrdən biridir. Biz müəllimlərin peşəkar inkişafına ciddi sərmayə qoyuruq. Müəllimlərin davamlı təhsili və peşəkar inkişafı bizim üçün prioritetdir. Çünki təhsil sistemi müəllimlərin keyfiyyəti qədər güclü olur”.

## Rəqəmsal transformasiya və təhsil

K.Kallasın sözlərinə görə, “Estoniya rəqəmsal cəmiyyət kimi tanınır və bu, təhsildə də öz əksini tapır. Texnologiya bizim üçün məqsəd deyil. O, yalnız vasitədir. Texnologiyanın məqsədi müəllimləri əvəz etmək deyil. Texnologiyanın məqsədi müəllimlərin işini daha effektiv etmək, təhsilin keyfiyyətini artırmaq və şagirdlər üçün daha yaxşı öyrənmə imkanları yaratmaqdır.

Bu gün süni intellekt artıq gələcəyin mövzusu deyil, o, artıq bu gün təhsil mühitini formalaşdırır. Buna görə də biz düşünürük ki, müəllimlər və şagirdlər bu texnologiyanı necə məsuliyyətli və yaradıcı şəkildə istifadə etməyi öyrənməlidirlər.

## Süni intellekt və yeni bacarıqlar

Nazir çıxışında dövrümüzün qlobal çağırışlarından olan süni intellektin təhsilə təsirindən danışıb: “Bu gün süni intellekt təhsil üçün yeni imkanlar və yeni çağırışlar yaradır. Bizim məqsədimiz texnologiyanın insanı əvəz etməsi deyil. Əksinə, biz istəyirik ki, texnologiya insanların düşünmə qabiliyyətini genişləndirsin. Gələcəyin təhsil sistemi şagirdlərə yalnız məlumat öyrətməməlidir. Təhsil şagirdləri düşünməyə, analiz etməyə və mürəkkəb problemləri həll etməyə hazırlamalıdır.

Bizim üçün əsas sual belədir: süni intellekti təhsildə necə məsuliyyətli və səmərəli şəkildə istifadə etmək olar? Biz istəyirik ki, şagirdlər yalnız texnologiyanı istifadə etməyi deyil, həm də onu tənqidi şəkildə başa düşməyi öyrənsinlər. Çünki gələcəyin dünyasında ən vacib bacarıqlar bunlar olacaq: tənqidi düşünmə; yaradıcılıq; problemlərin həlli; əməkdaşlıq. Məktəblər şagirdləri məhz bu bacarıqlarla təmin etməlidir”.

## Gələcəyə baxış

**Nazir vurğulayıb ki, bugünkü sammit bizə bir daha xatırladır ki, təhsilin gələcəyi yalnız bir ölkənin məsuliyyəti deyil: “Təhsilin gələcəyi qlobal məsələdir. Heç bir ölkə bu problemləri təkbaşına həll edə bilməz. Buna görə də ölkələr bir-birindən öyrənməli və təcrübə mübadiləsi aparmalıdır. Bizim hamımızın ortaq məqsədi var: gələcək nəsilləri sürətlə dəyişən dünyaya hazırlamaq. Bu isə yalnız məktəblərin və ya hökumətlərin işi deyil. Bu, müəllimlərin, tədqiqatçıların, siyasətçilərin və cəmiyyətin birgə məsuliyyətidir. Estoniyanın təhsil hekayəsi hələ tamamlanmayıb. Biz daim öyrənirik, dəyişirik və inkişaf edirik. Bir şeyə əminik: təhsil ölkənin gələcəyini müəyyən edən ən vacib sahələrdən biridir. Bilirik ki, təhsil sistemləri də cəmiyyət kimi daim inkişaf etməlidir. Ümid edirəm ki, bu sammitdə biz bir-birimizdən öyrənəcəyik, yeni ideyalar əldə edəcəyik və müəllim peşəsinin gələcəyini birlikdə formalaşdıracağıq”.**




## Andreas Şleyxer: Təhsil sistemləri dəyişikliklərə eyni sürətlə uyğunlaşa bilmir

Sammitdə çıxış edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Təhsil və bacarıqlar departamentinin direktoru Andreas Şleyxer qeyd edib ki, təhsil sahəsində qarşılaşdığımız problemlər qlobal xarakter daşıyır və bu problemlərin həlli üçün ölkələr arasında əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. “Bu gün biz çox sürətlə dəyişən bir dünyada yaşayırıq. Texnologiya, iqtisadiyyat və cəmiyyət sürətlə transformasiya olunur. Lakin çox vaxt təhsil sistemləri bu dəyişikliklərə eyni sürətlə uyğunlaşa bilmir. Bir çox məktəblər və təhsil strukturları hələ də keçmişin ehtiyacları üçün yaradılmış modellər üzərində fəaliyyət göstərir.

Əgər biz şagirdləri gələcəyə hazırlamaq istəyiriksə, onda təhsil sistemlərinin məqsədi yalnız bilik ötürmək olmamalıdır. Məktəblər şagirdlərə necə düşünməyi, necə öyrənməyi və problemləri necə həll etməyi öyrətməlidir. Gələcəyin dünyasında ən vacib resurs məlumat deyil. Məlumat hər yerdə mövcuddur. Əsas məsələ həmin məlumatdan necə istifadə etməyi bacarmaqdır”.

Əsas fikir budur: təhsil sistemi yalnız mövcud bilikləri ötürməməli, insanları naməlum problemlərlə işləməyə hazırlamalıdır. Başqa sözlə, məktəblər şagirdləri gələcəkdə yaranacaq problemlərə hazır etməlidir, yalnız bugünkü problemlərə deyil.

## Tənqidi düşünmə, yaradıcı yanaşma və əməkdaşlıq

Andreas Şleyxer hesab edir ki, təhsil sistemlərinin diqqəti yalnız faktların öyrədilməsinə deyil, həm də bacarıqların inkişafına yönəlməlidir.

“Şagirdlər tənqidi düşünməyi, yaradıcı yanaşmanı və əməkdaşlıq etməyi öyrənməlidirlər. Bu bacarıqlar gələcək cəmiyyətin və iqtisadiyyatın əsasını təşkil edəcək. Bu dəyişikliklər müəllim peşəsinin rolunu da dəyişdirir. Keçmişdə müəllim əsasən bilik ötürən şəxs kimi qəbul edilirdi. Bu gün isə müəllimin rolu daha genişdir. Müəllim öyrənmə prosesinin dizayneridir. Müəllim öyrənmə prosesini təşkil edən, şagirdlərin maraqlarını və ehtiyaclarını nəzərə alan və onların potensialını inkişaf etdirən bir liderdir. Uğurlu təhsil sistemlərinə baxdıqda biz maraqlı bir nümunə görürük. Bu sistemlərdə müəllimlərə yüksək səviyyədə etimad göstərilir. Müəllimlər yalnız kurikulumun icraçıları deyil, həm də öyrənmə prosesinin yaradıcı iştirakçılarıdır. Onlar öz siniflərində qərar vermək və innovativ metodlar tətbiq etmək imkanına malikdirlər. Bu, təhsil siyasəti üçün vacib bir mesajdır. Təhsil sistemləri yalnız qaydalar və standartlarla idarə olunmamalıdır. Əgər biz innovasiya və inkişaf istəyiriksə, onda müəllimlərə güvənməli və onların peşəkar muxtariyyətini artırmalıyıq”.

A.Şleyxerə görə, eyni zamanda məktəblər arasında əməkdaşlıq da çox vacibdir. Ən yaxşı təhsil sistemləri rəqabət üzərində deyil, əməkdaşlıq üzərində qurulub. Müəllimlər bir-birindən öyrənir, təcrübə paylaşır və birlikdə yeni yanaşmalar inkişaf etdirirlər. Dünya dəyişir, təhsil sistemi də dəyişməlidir.

A.Şleyxerin çıxışında ən çox vurğulanan ideyalardan biri: Təhsil sisteminin keyfiyyəti müəllimlərin keyfiyyətindən yüksək ola bilməz. Bu kontekstdə o, üç məsələyə diqqət çəkir:

- *müəllimlərin peşəkar inkişafı;*
- *müəllim peşəsinin cəmiyyət tərəfindən dəyərləndirilməsi;*
- *müəllimlərin təhsil siyasətində iştirakının artırılması.*

Beləliklə, A.Sleyxer müxtəlif ölkələrin təcrübəsinə əsaslanaraq bildirir ki, yaxşı təhsil sistemləri: müəllimlərə peşəkar muxtariyyət verir, məktəblər arasında əməkdaşlıq mədəniyyəti yaradır, siyasətçilərlə müəllimlər arasında etimad qurur. O vurğulayır ki, etimad və əməkdaşlıq innovativ təhsil sistemlərinin əsasını təşkil edir.

## Süni intellekt müəllimləri əvəz etməyəcək

OECD rəsmisi qeyd edir ki, bugünkü dünyada texnologiya təhsil sisteminin ayrılmaz hissəsinə çevrilib: “Xüsusilə süni intellekt təhsil üçün yeni imkanlar yaradır. Lakin texnologiyaya yalnız texniki vasitə kimi baxmaq kifayət deyil. Əsas məsələ texnologiyanın öyrənmə prosesinə necə inteqrasiya olunmasıdır.

Süni intellekt müəllimləri əvəz etməyəcək. Əksinə, o, müəllimlərin işini daha effektiv edə bilər. Məsələn, süni intellekt şagirdlərin öyrənmə prosesini daha yaxşı analiz edə və müəllimlərə fərdiləşdirilmiş tədris imkanları yaradar ki, bu da hər bir şagirdin potensialını daha yaxşı inkişaf etdirməyə kömək edə bilər.

Bununla belə, texnologiya təhsilin əsas məqsədini dəyişmir. Təhsilin əsas məqsədi insanın inkişafıdır. Məktəblər yalnız bilik verən institutlar deyil, həm də gənclərin dünyanı anlamaq, məsuliyyətli və aktiv vətəndaş olmaq bacarığını inkişaf etdirən mühitlərdir”.

A.Şleyxer çıxışında AI (süni intellekt) mövzusuna xüsusi yer verib. Onun əsas mesajı belədir:

- *AI təhsili dəyişdirəcək;*
- *Lakin məqsəd insanı əvəz etmək deyil;*
- *AI müəllimin qərarverməsini gücləndirməlidir.*

AI aşağıdakı imkanları yarada bilər: fərdiləşdirilmiş öyrənmə, şagirdlərin ehtiyaclarının daha yaxşı analiz edilməsi, müəllimlərin vaxtının daha effektiv istifadəsi.

## Təhsil sisteminin uğuru yalnız hökumətlərin qərarlarından asılı deyil

A.Şleyxer qeyd edir ki, təhsil siyasətində tez-tez rast gəlinən problemlərdən biri də budur ki, sistemlər dəyişikliklərə yalnız reaksiya verir: “Halbuki təhsil sistemləri dəyişiklikləri yönləndirməlidir. Təhsil gələcəyin cəmiyyətini formalaşdıran əsas institutdur. Bu baxımdan siyasətçilər, müəllimlər və cəmiyyət birlikdə işləməlidir. Təhsil sisteminin uğuru yalnız hökumətlərin qərarlarından asılı deyil. O, müəllimlərin, məktəblərin və icmaların birgə fəaliyyətindən asılıdır.

Buna görə də beynəlxalq əməkdaşlıq çox vacibdir. Müxtəlif ölkələr fərqli təcrübələrə malikdir və biz bir-birimizdən çox şey öyrənə bilərik. Bu sammit də məhz belə bir öyrənmə və əməkdaşlıq platformasıdır”.

Çıxışının sonunda A.Şleyxer qeyd edib ki, gələcəyin təhsil sistemi insan potensialının inkişafına yönəlmiş sistem olmalıdır. “Bu sistem müəllimlərə güvənən, əməkdaşlıq mədəniyyətinə əsaslanan, innovasiyanı təşviq edən və şagirdlərin yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirən bir sistem olmalıdır. Əgər biz bunu bacarsaq, onda təhsil yalnız cəmiyyətin dəyişikliklərinə uyğunlaşmayacaq, həm də gələcək cəmiyyətin formalaşmasına aktiv şəkildə töhfə verəcək”.

Beləliklə də A.Şleyxerə görə, gələcəyin məktəbi texnologiya ilə öyrənməni dəstəkləyən, şagirdin aktiv iştirak etdiyi təhsil sistemi olmalıdır.

Qeyd edək ki, “ISTP 2026” Estoniyanın Təhsil və Tədqiqat Nazirliyi, OECD və “Education International” beynəlxalq təşkilatının birgə tərəfdaşlığı ilə təşkil olunub.

**Oruc MUSTAFAYEV**



# Yurdumuza BAHAR gəlir



## Keçmişdən gələcəyə uzanan dəyərlər

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələri şagirdlərinin ifasında “Şəhərsalma və Memarlıq İli” çərçivəsində “Dəyərlərimizi qoruyaq: keçmişdən gələcəyə yurdum mənim” tamaşası təqdim olunub.**










Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində nümayiş etdirilən tamaşanı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, millət vəkilləri, Elm və Təhsil Nazirliyinin (ETN) İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, ETN-in və BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, təhsil müəssisələrinin və uşaq-gənclər inkişaf mərkəzlərinin rəhbərləri, şagirdlər, media və ictimaiyyət nümayəndələri izləyiblər.

Tamaşanın hazırlanmasında əsas məqsəd gənc nəslin soykökümüzə, adət-ənənələrimizə bağlılıq, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunmasından, şagirdlərin milli kimliyə bağlılığını artırmaqdan, keçmişdən gələn dəyərləri qoruyaraq gələcəyə inamla addımlamağın vacibliyini aşılamaqdan, Azərbaycan xalqının dövlətçilik ənənələrinin, elm və ədəbiyyat sahəsində qazandığı nailiyyətlərin gənc nəslə çatdırılmasından ibarətdir. Məktəblilərin iştirakı ilə hazırlanan səhnə əsəri həmçinin gənc nəslin milli kimlik, dövlətçilik ideyalarına bağlılığını nümayiş etdirmək və onların yaradıcılıq potensialını üzə çıxarmaq məqsədi daşıyır.

## Novruz adət-ənənələrinə xüsusi ehtiram

*49 nömrəli “İntellekt” məktəb-liseydə Novruz çərşənbələri təmtəraqla qeyd olunub*

**Novruz xalqımızın milli kimliyini, adət-ənənələrini və mənəvi dəyərlərini yaşadan ən əziz bayramlardan biridir. Novruz baharın gəlişini, təbiətin oyanışını və yeni ilin başlanmasını simvolizə edir. Hər il mart ayının 20-nə təsadüf edən bu bayram gecə ilə gündüzün bərabərləşdiyi ana yazın ilk gününə təsadüf edir.**

Qədim tarixə malik olan bu bayram bizə həmçinin təbiətlə harmoniyada yaşamağı, birlik və mehribanlıq içində olmağı öyrədir. İnsanlar bayram ərəfəsində evlərini təmizləyir, küsülülər barışır, ehtiyacı olanlara yardım edilir. Bu isə cəmiyyətimizdə sevgi, mərhəmət və paylaşma hisslərini gücləndirir.

Novruzdan əvvəlki dörd həftə xalq arasında xüsusi əhəmiyyət daşıyan çərşənbələrlə qeyd olunur. Bu çərşənbələr təbiətin dörd ünsürünü təmsil edir: su, od, yel və torpağı. Bakı şəhəri 49 nömrəli “İntellekt” məktəb-liseydə təşkil edilən bayram tədbirlərində hər çərşənbənin özünəməxsus adət-ənənələrinin təcəssüm etdirilməsi xüsusi maraqla qarşılandı.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Elza Bağırzadə bu tədbirlərin keçirilməsində əsas məqsədin şagirdlərə milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub yaşatmaq və gələcək nəsillərə ötürmək olduğunu qeyd etdi. O, Novruz bayramının tarixindən, müxtəlif dövrlərdə ona olan fərqli münasibətdən, hal-hazırda isə dövlət səviyyəsində milli bayram kimi qeyd olunmasından danışaraq təşkilatçılara uğurlar arzuladı.








İlk çərşənbə ənənəvi olaraq suya həsr olunur. Məktəbdə Su çərşənbəsi münasibətilə təşkil olunan ilk tədbirdə şagirdlər Novruz ənənələrini əks etdirən maraqlı çıxışlar etdilər. Qarmonda “Səməni” havası ifa olundu, müxtəlif milli rəqslər nümayiş etdirildi. Həmçinin xalqımızın zəngin folklor nümunələri olan bayatılar və haxıştalar səsləndirildi.

Od çərşənbəsində tonqallar qalayaraq onların üzərindən atlanmaq ənənəsi köhnə ilin ağrı-acılarından qurtulmaq, yeni ilə təmiz niyyətlə başlamaq istəyindən irəli gəlir. Od çərşənbəsi də məktəb-liseydə böyük coşqu ilə qeyd olundu. Tədbirdə şagirdlər Od çərşənbəsinin tarixi və xalqımız üçün əhəmiyyəti haqqında məlumat verdilər. Müxtəlif səhnəciklər nümayiş olundu. Keçəl və Kosa obrazlarının dialoqu tədbirə xüsusi rəng qatdı.

Tədbir çərçivəsində ağbirçək nənələrimizin iştirakı ilə şəkərbura master-klası təşkil olundu. Nənələrimiz şəkərburanın hazırlanma qaydalarını: xəmirin yoğrulmasından içliyin hazırlanmasına, üzərinə vurulan incə naxışların sirlərinə qədər şagirdlərə nümayiş etdirdilər. Həmçinin milli mətbəximizin əvəzsiz nemətləri olan plov və balıq balaca aşbazlar tərəfindən təqdim edildi.

Sayca üçüncü olan Yel çərşənbəsi isə təbiətin canlanmasına bir işarə sayılır. Yel çərşənbəsinə həsr olunmuş tədbir də maraqlı proqramla keçirildi. Tədbirdə ustad Şəhriyarın “Heydər babaya salam” poemasından Novruz bayramına həsr olunan lirik parçalar səsləndirildi. Şagirdlərin ifasında bayram əhvali-ruhiyyəli mahnılar oxundu, şeirlər söylənildi. Tədbirə dəvət olunan muğam üçlüyü canlı ifaları ilə bayram tədbirinə xüsusi ab-hava bəxş etdi.

İlaxır çərşənbə də adlanan Torpaq çərşənbəsi isə bolluq , bərəkət simvoludur. Məhz Torpaq çərşənbəsi münasibətilə məktəb-liseydə xüsusi bayram konserti keçirildi. Həmin tədbir canlarını torpaq uğrunda fəda etmiş Şəhid övladlarına həsr olundu. Tədbirdə şəhid ailə üzvləri və şəhidlərimizin yadigarları iştirak etdilər. Bayram proqramı çərçivəsində III sinif şagirdlərinin hazırladığı konsert proqramı təqdim olundu. Yuxarı sinif şagirdləri tərəfindən türkdilli xalqların ortaq Novruz ənənələri, çərşənbələrin yaranma tarixi və mahiyyəti haqqında təqdimatlar səsləndirildi. Həmçinin şagirdlər Novruz simvollarını əks etdirən geyimlərlə səhnəyə çıxaraq mahnılar və milli rəqslər ifa etdilər.

Məktəbin təşkilati işlər üzrə direktor müavini Sevinc Əhmədoğlu Torpaq çərşənbəsinin məhz Şəhid övladlarına həsr olunmasının xüsusi məna kəsb etdiyini vurğuladı: “Babalarımızdan bizə miras qalmış müqəddəs torpaqlarımız məhz şəhidlərin, qazilərin qanı, canı bahasına işğaldan azad olundu və sanki bu torpaqlar bizim üçün daha da müqəddəsləşdi”.

**Elçin MANAFOV,**
**Bakı şəhəri 49 nömrəli “İntellekt” məktəb-liseyin ədəbiyyat müəllimi**

## Novruzun müjdəçiləri

**Xalq adət-ənənəsinə görə, Novruz bayramından öncə davam edən Boz ay ərzində Su, Od, Yel və Torpaq çərşənbələri qeyd edilir. Bu çərşənbələr ilə Novruz bayramına hazırlıqlar başlanır. Hər çərşənbə ilə təbiət yavaş-yavaş oyanır, insanın ruhuna işıq dolur. Təbiətlə insanın ahənginin, yenilənmənin və dirçəlişin rəmzi olan Novruz bayramını qeyd etməyimizə sayılı günlər qalır. Belə ki, martın 20-si saat 18:45:53-də yaz öz qapısını Azərbaycana açacaq. O an təkcə bir fəslin dəyişməsi deyil, həm də ümidlərin təzələnməsi, köhnənin arxada qalması deməkdir. Novruz bayramının müjdəçiləri sayılan çərşənbələrin hər biri xalqımızın milli adət-ənənələrini özündə yaşadır.**

**Novruzun ilk çərşənbəsi — Su çərşənbəsidir. Xalq arasında bu çərşənbəyə “Yalançı çərşənbə”, “Əzəl çərşənbə”, “Gözəl çərşənbə”, “Sular Novruzu”, “Gül çərşənbə” də deyirlər.**

Su çərşənbəsi ilə Novruz bayramına hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Qədim inam və etiqadlara görə, su çərşənbəsində təbiətin dörd ünsüründən biri olan su yenilənir. Bu çərşənbə su ilə, suyun təzələnməsi ilə başlanır.

Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqımızın inancına görə, Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər ilboyu xəstəlikdən uzaq, sağlam olarlar. Sübh tezdən bulaqdan götürülən su isə min bir dərdin dərmanıdır.




Su həyat mənbəyi, aydınlıq rəmzidir. Su çərşənbəsində hamının həyətində ilk tonqal qalanır və bayram ab-havasının yaxınlaşdığı nəzərə çatdırılır. İlk tonqalın su çərşənbəsində yandırılması buzların əriməsi, artıq qışın arxada qalmasının göstəricisidir. Həmin gün insanların bir-birinin üzərinə su atması da uğura işarədir.

Su çərşənbəsində həmçinin süfrəyə su qoymaq və suyun masa üzərinə tökülməsi xeyirliyə yozulur. Əgər süfrənizdə su aşıb tökülərsə, ilin sizin üçün bol ruzi-bərəkət gətirəcəyi gözlənilir.

**Novruz çərşənbələrindən ikincisi olan Od çərşənbəsinə xalq arasında “Üzgü çərşənbə”, “Addı çərşənbə”, “Üzgü gecəsi” və yaxud “İkinci çərşənbə” də deyilir.**

Od çərşənbəsi yeni həyatın, daha doğrusu, yazın gəlişini simvolizə edir. Od çərşənbəsi ilə bahara doğru daha bir addım yaxınlaşmış oluruq. Adıçəkilən çərşənbə xalq inanclarına görə insanın daxilindəki işığı oyadır. Od çərşənbəsinin mahiyyətində odun qədimdən müqəddəs sayılması, insanı hər cür pisliklərdən, şərdən təmizləyəcəyinə, xeyrin qələbə çalacağına inam ifadə olunur.




Odla bağlı bir çox deyimlər, alqışlar, inanclar, atalar sözləri, andlar bu günə kimi qalmaqdadır: odla oynayan odsuz qalar; od haqqı; ocağın qaralmasın və s.

Od çərşənbəsi özünün adət-ənənələri ilə də zəngindir. Axşam düşəndə həyətlərdə tonqallar qalanır. Hamı tonqal başına toplanır. İnanclara görə, odun üstündən tullananda insanlar “Ağırlığım-uğurluğum odda qalsın!”, - söyləyərək bütün ağırlığını, dərdini, xəstəliyini oda verir. İnsanlar yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına ürəkdən inanırlar. Və bu gecə ocaq sönməməlidir. Çünki ocaq ailənin istiliyi, bərəkəti deməkdir. Od nə qədər gur yanarsa, il də bir o qədər uğurlu olar. Od çərşənbəsində də qazanlar qaynamalı, ocağın üstü boş olmamalıdır.

**Yel çərşənbəsinə xalq arasında “Külək oyadan çərşənbə”, “Heydər çərşənbəsi” və “Küləkli çərşənbə” də deyilir.**

Qədim inanclara görə, Yel çərşənbəsində oyanan külək bütün dünyanı dolaşaraq təbiətə can verir. O, oyanmış suyu və odu hərəkətə gətirir, torpağa yeni nəfəs bəxş edir. Elə buna görə də xalq arasında bu gün “Yelli-küləkli çərşənbə” kimi də adlandırılır. İnsanlar inanırlar ki, əsən küləklər baharın ılıq nəfəsini, yenilənmə və dirçəliş müjdəsini gətirir. Xalq arasında belə bir inanc da var ki, Yel çərşənbəsində əsən külək insanların diləklərini göylərə aparır. Buna görə də bu gün niyyət etmək və arzular diləmək ənənəsi geniş yayılmışdır.

Təmiz sudan keçib pak olanlar, arzusunu suya danışanlar, Tanrıdan əkininə bol su diləyənlər, sonra isə tonqaldan atlanaraq “ağırrığını-uğurruğunu” oda atanlar, səpdiklərinə can verən istini, Günəş işığının bolluğunu arzulayanlar Yel babaya üz tutur, ən gözəl dualarla onu qarşılayırlar.




Yel çərşənbəsi həm də hazırlıq və yenilənmə günüdür. Bu gün ev-eşik, həyət-baca təmizlənir, insanlar son çərşənbəyə və Novruz bayramına hazırlaşırlar. Evlərdə südlü plov və ya bulğur aşı bişirilir, süfrəyə quru meyvələr, qoz-fındıq və müxtəlif çərəzlər düzülür. Bir qarış boy atan səməninin ortasına qırmızı lent bağlanır. Süfrədə şirniyyatların bol olması isə ilin şirin və bərəkətli keçəcəyinə işarə sayılır.

Xalq arasında Yel çərşənbəsi ilə bağlı bu günümüzə qədər yaşayan və özünü doğrultmuş müxtəlif hikmətli ifadələr və atalar sözləri var. Məsələn: “Yel apardığını qaytarmaz”, “Yel əsib qoz tökülüb”, “Külək kimi hərdən bir yana əsmə”, “Yel qayadan nə aparar”, “Yelnən gələn selnən gedər”, “Yellə dost olan yellənə-yellənə qalar” və s.

Şifahi xalq yaradıcılığında isə Yelin tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl yaranıb. Müxtəlif rəvayət və məsəllərdə adıçəkilən Yel baba əcdadlarımızın Külək tanrısına etiqadı ilə bağlıdır.

Yel çərşənbəsi günü axşamüstü hər məhəllədə, həyətlərdə tonqallar qalanır, böyüklü-kiçikli hamı növbə ilə 3 dəfə onun üstündən atlanırlar. Bu, insanların bədbəxtlikdən, azar-bezardan uzaq olması, yeni ilə saf niyyətlə qədəm qoyması arzusunu ifadə edir.

**Qışın soyuq nəfəsi yavaş-yavaş çəkildikcə təbiət yeni bir həyatın astanasına qədəm qoyur. Bu oyanışın ən gözəl müjdəçisi isə xalqımızın böyük sevgi ilə qeyd etdiyi Torpaq çərşənbəsidir.**

Xalq arasında bu çərşənbəyə “İlaxır çərşənbə”, “Çərşənbə-suri”,“Yer çərşənbəsi” də deyilir. Torpaq çərşənbəsində torpağa istilik gəlir, otlar cücərir, ağaclar tumurcuqlayır, bütövlükdə təbiət oyanmağa başlayır ki, bu da baharın gəlişindən soraq verir.Torpaq çərşənbəsi həyatın, bərəkətin və yenilənmənin rəmzidir.

Çərşənbələrin sultanı hesab edilən Torpaq çərşənbəsinin qədimdən özünəməxsus adət-ənənələri olub və bu günədək yaşamaqdadır.

Əvvəlcədən ev-eşik təmizlənir, bayram tədarükü görülür. Bütün evlərdə bayram süfrələri açılır, cürbəcür yeməklər, əsasən plov süzülür, paxlava, şəkərbura, şəkərçörəyi, şorqoğalı, səməni halvası hazırlanır. Xonçanın ortasında səməni, hər ailə üzvü üçün şam, əl-alvan rənglərə boyadılmış yumurtalar qoyulur. Yeddi növ nemətlərlə bəzənmiş süfrə ailə üzvlərini bir araya gətirir, sevinc və birlik hissini daha da gücləndirir.




Xüsusilə İlaxır çərşənbədə axşam şənlikləri daha möhtəşəm olur və xalqımız onu hər il təntənəli şəkildə qeyd edir.Bu günə el arasında həm də niyyət, dilək çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan ən gözəl diləklərin hamısı hasil olur.

Axşam düşəndə həyətlərdə tonqallar alovlanır. İnsanlar tonqalın üzərindən atlanaraq “ağırlığım-uğurluğum odda yansın” deyərək köhnə ilin bütün dərd-kədərini geridə qoymağa çalışırlar. Uşaqlar qapılara papaq atır, gənclər qulaq falına çıxır, küsülülər barışır.

Xalqımız üçün Novruz çərşənbələrinin ən böyük özəlliyi isə Azərbaycanın işğaldan azad edilmiş bütün ərazilərində qeyd edilməsidir. Qoy ailələrimizdə birlik, yurdumuzda sülh və əmin-amanlıq hökm sürsün, torpağımız həmişə bərəkətli, səmalarmız aydın, ürəklərimiz ümidlə dolu olsun!

**Samirə KƏRİMOVA**

# Qazax məktəblisi Azərbaycan çempionu oldu




**Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatında Qazax şəhəri Səməd Vurğun adına 2 nömrəli tam orta ümumtəhsil məktəbin şagirdi Nuray Əbilova uğur qazanıb.**

**Nuray Əbilova 53 kq çəki dərəcəsində iki hərəkətin cəmində 138 kq (60 kq + 78 kq) nəticə göstərərək I yerə layiq görülüb və Azərbaycan çempionu adını qazanaraq qızıl medal əldə edib.**

**Qeyd edək ki, bu, Nuray Əbilovanın ilk uğuru deyil. O, 2025-ci ildə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında bürünc medala layiq görülüb.**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 7868 **Sifariş:** 385

**Məsul növbətçi:** S.Kərimova



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

**aşağıdakı dekan və kafedralar üzrə müsabiqə**

## ELAN EDİR:

**Dekan vəzifəsini tutmaq üçün**

- Tibb fakültəsi
- Beynəlxalq münasibətlər və hüquq fakültəsi

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

- Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
- İngilis dili və tərcümə kafedrası
- Klinik fənlər və hərbi tibb kafedrası
- Stomatologiya kafedrası
- Avropa dilləri kafedrası
- Ümumi hüquq kafedrası
- Muzeyşünaslıq, Arxiv işi və kitabxanaçılıq kafedrası
- Memarlıq
- Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

- İqtisadiyyat və marketinq kafedrası - dosent - 1 yer, müəllim - 1 yer, müəllim - 1 yer (0,5 ştat)
- Mühasibat və maliyyə kafedrası - baş müəllim - 1 yer (0,5 ştat)
- Bələdiyyə və turizm kafedrası - dosent - 1 yer, dosent - 1 yer (0,5 ştat), müəllim - 1 yer
- Elektronika və informasiya texnologiyaları kafedrası - dosent - 1 yer (0,5 ştat), müəllim - 3 yer, müəllim - 1 yer (0,5 ştat)
- Elektroenergetika mühəndisliyi kafedrası - müəllim - 1 yer
- Meliorasiya və ekologiya mühəndisliyi kafedrası - dosent - 1 yer, baş müəllim - 1 yer
- Nəqliyyat mühəndisliyi və texniki fənlər - baş müəllim - 2 yer, baş müəllim - 1 yer (0,5 ştat)
- Memarlıq kafedrası - dosent - 1 yer (0,5 ştat)
- Azərbaycan dilçiliyi kafedrası - professor - 1 yer
- Azərbaycan tarixi kafedrası - professor - 1 yer (0,5 ştat), dosent - 2 yer, dosent - 1 yer (0,5 ştat)
- Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası - dosent - 1 yer (0,5 ştat)
- Sosial və ictimai münasibətlər kafedrası - professor - 1 yer (0,5 ştat)
- Ümumi və nəzəri fizika kafedrası - dosent - 1 yer (0,5 ştat), müəllim - 2 yer (0,5 ştat)
- İnformatika kafedrası - müəllim - 1 yer
- Ümumi riyaziyyat kafedrası - baş müəllim - 1 yer (0,5 ştat), müəllim - 1 yer (0,5 ştat)
- Məşqçilik kafedrası - professor - 1 yer, dosent - 1 yer
- Kimya kafedrası - dosent - 1 yer
- Biologiya kafedrası - dosent - 3 yer, baş müəllim - 1 yer
- Coğrafiya kafedrası - dosent - 1 yer, müəllim - 2 yer
- Baytarlıq təbabəti kafedrası - dosent - 1 yer
- Təməl tibb fənləri kafedrası - dosent - 1 yer, dosent - 1 yer (0,5 ştat), baş müəllim - 2 yer
- Klinik fənlər və hərbi tibb kafedrası - dosent - 1 yer (0,5 ştat)
- Əczaçılıq və biokimya kafedrası - dosent - 1 yer (0,5 ştat)
- Təsviri incəsənət kafedrası - dosent - 1 yer, baş müəllim - 1 yer
- Xalq çalğı alətləri kafedrası - baş müəllim - 1 yer
- İngilis dili və metodika kafedrası - baş müəllim - 2 yer
- Ümumi tarix kafedrası - müəllim - 1 yer
- Şərq dilləri kafedrası - müəllim - 1 yer (0,5 ştat)
- Pedaqogika və psixologiya - dosent - 2 yer, dosent - 1 yer (0,5 ştat)

**Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.**

*Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi*
*Telefon: (036)545-23-66/10-01*



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

**aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə**

## ELAN EDİR:

***Kafedralar üzrə boş olan vəzifələr:***

| | |
|---|---|
| 1. Riyazi analiz | - kafedra müdiri; |
| 2. Anatomiya, fiziologiya və zoologiya | - professor, 1 yer |
| 3. İqtisadiyyat | - professor, 1 yer |
| 4. Menecment və turizm işi | - baş müəllim, 1 yer |
| 5. Sosial fənlər | - baş müəllim, 1 yer |
| 6. Coğrafiya | - baş müəllim, 1yer, 0.5 şt. |

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**ÜNVAN:**
**AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**
**Gəncə Dövlət Universiteti, əsas bina (I)**
**Telefon: (022) 266-01-89**


# Etibarsız sayılır

**Bakı şəhər** 159 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Muxtarov Hadi Salam oğluna verilmiş B-162026 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Verdiyev Amil Ramil oğluna verilmiş A-297529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Yusifova Sahilə Qasım qızına verilmiş B-379714 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli** H.Mahmudbəyov adına Texniki Humanitar Liseyi 2008-ci ildə bitirmiş İsmayılzadə Leyla Şahin qızına verilmiş B-482154 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 11 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Akbaş Vəlixan Hakkı oğluna verilmiş A-524326 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2025-ci ildə Poladova Vüsalə Nadir qızına verilmiş magistr tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Yuxarı Mərcanlı kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Fərzəliyeva Vüsalə Həsən qızına verilmiş A-262278 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Avrasiya Universiteti** tərəfindən 2024-cü ildə Mamkeyeva Lamiə Böyükağa qızına verilmiş C-245768 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Qabaqdibi kənd tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Qəribli Zeynal Nurəddin oğluna verilmiş A-100945 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu qəsəbə tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Bayramov Sihun Teymur oğluna verilmiş E-742723 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xəsili kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Bayramlı Günay Habil qızına 2019-cu ildə verilmiş E-249678 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Veyisli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Cavadov Şahin Əli oğluna verilmiş AH-481316 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qaradağlı kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Qədimova Fəxriyyə Əli qızına verilmiş A-654540 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xan Qərvənd kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1997-ci ildə bitirmiş Rüstəmova Xəyalə İsa qızına verilmiş B-318935 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti** tərəfindən 2005-ci ildə Mirəhmədov Zahir Mirheydər oğluna verilmiş B-060872 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı Peşə Tədris Mərkəzi** tərəfindən 2018-ci ildə Talıbova Könül Talıb qızına verilmiş A-100831 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2006-cı ildə İsmayılova Nurlana Telman qızına verilmiş B-062393 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 39 nömrəli texniki peşə məktəbi (indiki Ə.Quliyev adına Mingəçevir Peşə Məktəbi) tərəfindən 1991-ci ildə Azayev Cavid Ərziman oğluna verilmiş 472023 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Paşayeva Dürdanə Hüseynəli qızına verilmiş B-054116 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Sadıqov Səbuhi Vahid oğluna verilmiş E-636661 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Qurbanova (Muradova) Tamara Cabir qızına verilmiş 654764 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 49 nömrəli "İntellekt" məktəb-liseyi 1994-cü ildə bitirmiş Musayev Rinat Musa oğluna verilmiş A-096998 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Məlikov Saleh Həsənəli oğluna verilmiş B-019624 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Məhərrəmova (Abuşova) Nəzakət Tofiq qızına verilmiş A-094408 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Fayziyev Bəxtiyar Sədri oğluna verilmiş A-094448 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 25 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Şərifov İbrahim Azər oğluna verilmiş E-415163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.